UOT 33
DOI:10.30546/3006-0346.2024.5.83.047

# HEYDƏR ƏLİYEVİN UĞURLU NEFT STRATEGİYASINDAN QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAFINA DOĞRU: İQTİSADİ ARTIM VƏ ONUN ƏSAS DRAYVERLƏRİ

**NURANA BABAYEVA**
*İqtisadiyyat Nazirliyinin İqtisadi Elmi Tədqiqat İnstitutunun doktorantı*
*E-mail: babayeva.nurana@gmail.com*

## Giriş

Azərbaycan Respublikası 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra çox çətin sınaqlarla üz-üzə qalmışdır. Demək olar ki, bütün iqtisadi əlaqələr kəsilmiş, ölkədə separatizm və siyasi hərc-mərclik meyillərinin güclənməsi ərazilərin işğalına rəvac verməklə gənc respublikanın mövcudluğuna qarşı təhdidlər yaratmışdır. Ancaq 1993-cü ildə Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı Azərbaycan tarixində dönüş nöqtəsinin yaranmasına gətirib çıxardı. Ulu Öndərin dərin zəkası və müdrik rəhbərliyi sayəsində Azərbaycan sabitlik və dayanıqlı inkişaf mərhələsinə qədəm qoydu. Heydər Əliyev dühasının ölkənin tale yüklü məsələləri ilə bağlı qəbul etdiyi strateji qərarlar qazanılacaq böyük uğurların və davamlı inkişafın sağlam təməlinə çevrildi. Heydər Əliyev siyasətinin aparıcı istiqamətlərindən birini ölkənin güclü iqtisadiyyatının yaradılması təşkil edirdi və bu məqsədlə maliyyə qaynaqlarının tapılması ən aktual məsələlərdən hesab olunurdu.

Milli iqtisadiyyatların inkişafı üçün maliyyələşmə mənbələrinin tapılması iqtisadi ədəbiyyatlarda araşdırılan ən vacib problemlərdən biridir. Bu kontekstdə, iqtisadiyyata investisiyaların cəlb edilməsi bir çox makroiqtisadi göstəricilərin, eləcə də iqtisadi artımın təmin olunmasında əsas faktorlardan biri kimi çıxış edir. Bu baxımdan milli iqtisadiyyatın investisiyalarla təmin edilməsi onun inkişafı üçün mühüm əhəmiyyətə malikdir (Humbatova və b., 2020). Elə buna görə də ölkəyə investisiyaların cəlb edilməsi və milli iqtisadiyyatın inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi müstəqilliyin ilk illərində Azərbaycan üçün həyati önəmə malik məsələlərdən biri olmuşdur.

Mövcud reallıqlar nəzərə alınaraq dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycanda bazar iqtisadiyyatına keçid prosesi reallaşdırılmağa başladı. XX əsrin 90-cı illərinin əvvəllərində ölkə iqtisadiyyatında ciddi tənəzzülün müşahidə olunmasına baxmayaraq, 1995-ci ildən etibarən milli iqtisadiyyat nisbətən dirçəlməyə başladı. Bu tendensiya xüsusilə də 1994-cü ilin 20 sentyabrında Bakıda Azərbaycan hökuməti ilə dünyanın qlobal neft şirkətləri arasında Xəzərin Azərbaycan bölməsində yerləşən neft ehtiyatlarının müştərək işlənməsinə dair "Əsrin müqaviləsi"nin imzalanmasından sonra özünü göstərdi. Bundan sonrakı mərhələdə isə neft sektoruna əsaslanan yüksək sürətli iqtisadi artım dövrü başladı və bu proses Azərbaycan iqtisadiyyatında müsbət dönüş nöqtəsinə çevrildi. Heydər Əliyevin uğurlu neft strategiyasının əsas elementlərindən biri olan və gündəlik bir milyon barel ötürmə qabiliyyətinə malik "Bakı-Tbilisi-Ceyhan" (BTC) neft kəmərinin 2005-ci ildə fəaliyyətə başlamasından sonrakı illərdə Azərbaycanın əsas makroiqtisadi göstəricilərində əhəmiyyətli yüksəliş müşahidə olunmağa başladı. Artıq 2007-ci ildə Azərbaycanın neft istehsalı 42 milyon tondan çox olmuşdur və 2009-cu ildə isə hətta 50 milyon tonu keçmişdir. Beləliklə, neft istehsalının və ixracının artması, bununla paralel olaraq Azərbaycanda yüksək iqtisadi artım templərinin baş verməsinə və dövlət gəlirlərinin artmasına gətirib çıxardı. Bunun nəticəsi olaraq, 2006-cı ildə Azərbaycanın ÜDM-də 34,5 % və 2007-ci ildə isə 25,05 % artım qeydə alındı (Suleymanov və Aliyev, 2015). Bəhs olunan dövrdə Azərbaycanın maliyyə imkanlarının genişlənməsi və investisiya mühitinin yaxşılaşması ölkə iqtisadiyyatına böyük sərmayələrin yatırılmasına imkan verdi. Bu sərmayələr əsas makroiqtisadi göstəricilərin yaxşılaşmasına və milli iqtisadiyyatın canlanmasına gətirib çıxardı.

## Azərbaycanın neft strategiyasının əsas elementləri

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan ölkəmizin uğurlu neft strategiyasının başlıca meyarlarından birini neft ixrac marşrutlarının şaxələndirilməsi təşkil etmişdir və Heydər Əliyevin "şaxələndirilmiş boru kəmərləri xoşbəxtlikdir" şüarı bu istiqamətdə fəaliyyətin əsas mayaklarından birinə çevrilmişdir (Ismailzade və Babayev, 2020). Məhs bununla əlaqədardır ki, Azərbaycan BTC ilə yanaşı digər neft-qaz marşrutlarının işə salınmasına da böyük önəm vermiş və bu sahədə də uğurlu

nəticələr əldə etmişdir. Bu kontekstdə, Azərbaycan böyük karbohidrogen resurslarının dünya bazarlarına daşınması məqsədilə bir sıra regional və qlobal layihələr reallaşdırmışdır. Hələ 1997-ci ildə ölkəmiz Bakı-Novorossiysk kəməri vasitəsilə Qara dənizə neft ixracatını reallaşdırmağa nail olmuşdur. Bundan iki il sonra – 1999-cu ildə isə Bakı-Supsa boru kəmərinin istifadəyə verilməsi ilə bu xətt vasitəsilə də Azərbaycan nefti dünya bazarlarına çatdırılmışdır. Bundan başqa, dəmir yolu imkanlarından da istifadə olunmaqla Gürcüstanın Batumi və Kulevi terminallarına neftin nəqli həyata keçirilmişdir (Energetika Nazirliyi, 2019).

2007-ci ildə istismara qəbul edilmiş Bakı-Tbilisi-Ərzurum qaz boru xətti Azərbaycan qazının qonşu Gürcüstan vasitəsilə qardaş Türkiyəyə nəql edilməsi məqsədilə çəkilmişdir. Bu kəmər vasitəsilə artıq Gürcüstan və Türkiyə ilə yanaşı Yunanıstana da Azərbaycan qazının ixrac edilməsi reallaşdırılmışdır. 2018-ci ildə isə Türkiyədə TANAP kəmərinin rəsmi açılışı baş tutmuşdur. Bunun ardınca isə, 31.12.2020-ci tarixində TAP kəmərinin istifadəyə verilməsi ilə Azərbaycan qazının Avropa ölkələrinə ixracına başlanılmışdır. Bu kəmərlər və onların imkanlarının genişləndirilməsi ümumi dəyəri 40 milyard ABŞ dolları həcmində qiymətləndirilən Cənub Qaz Dəhlizi layihəsinin əsas elementləri hesab olunur. Layihənin əsası 2011-ci ildə Azərbaycan hökuməti ilə Aİ arasında Avropaya birbaşa qaz ixracını özündə ehtiva edən sənədin imzalanması ilə qoyulmuşdur. Qeyd etmək lazımdır ki, Azərbaycan böyük strateji əhəmiyyət kəsb edən Cənub Qaz Dəhlizi layihəsinin əsas investoru və təşəbbüskarıdır (https://president.az/az/pages/view/azerbaijan/contract).

Göründüyü kimi, "Əsrin müqaviləsi"nin imzalanması və BTC-nin işə salınması, eləcə də Cənub Qaz Dəhlizi çərçivəsində görülən digər işlər Azərbaycanın böyük neft-qaz rezervlərinin dünya bazarlarına ixracına imkan vermişdir. Bunların nəticəsi olaraq, ölkə iqtisadiyyatına böyük investisiyaların yatırılmasına və milli iqtisadiyyatın dirçəldilməsinə şərait yaranmışdır. Ancaq neft strategiyasının Azərbaycana bəxş etdiyi dividendlər təkcə böyük maliyyə resursları ilə bitmirdi. Artıq Azərbaycan regionda Avropa və qərb ölkələrinin strateji tərəfdaşına və Avropanın enerji təhlükəsizliyinin vacib elementinə çevrilmişdi. Bunun nəticəsində gənc respublikamız təhlükəsizliyini qorumaq və diplomatik çərçivələrdə milli maraqlarını müdafiə etmək üçün böyük dəstək qazanmağa nail olmuşdur. Bu baxımdan, əminliklə demək olar ki, neft strategiyası Azərbaycana iqtisadi dividendlərlə yanaşı, siyasi və diplomatik dividendlər gətirmişdir.

Hələ o dövrdə, ABŞ-ın Enerji İnformasiya İdarəsinin açıqladığı məlumatda göstərilirdi ki, Azərbaycan Xəzər hövzəsində onlar üçün əsas strateji tərəfdaşdır (Khrushcheva, 2011). Azərbaycan Avropa İttifaqının (Aİ) əsas qaz təchizatçılarından da biri hesab olunur. Ona görə ki, Azərbaycan həm öz resurslarının Avropaya ixracı baxımından, həm də, digər Xəzəryanı ölkələrin enerji resurslarının Avropaya ixracı üçün ən əlverişli tranzit ölkə kimi çıxış edir. Bu da respublikamızın Şərqlə Qərb arasında enerji resurslarının daşınmasında əsas tranzit ölkə kimi rolunu daha da artırır. Bu məsələ hazırda daha da aktuallaşmışdır. Xüsusilə, Rusiyanın Ukraynaya hücumu ilə əlaqədar Rusiyaya qarşı tətbiq olunan sanksiyalar Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolunu daha da artırmışdır. Təsadüfi deyildir ki, 2022-ci ildə Aİ-nın enerji təhlükəsizliyi ilə əlaqədar qəbul olunmuş yeni strateji sənəddə Azərbaycan Birliyin əsas enerji təchizatçılarından biri kimi göstərilir (European Commission, 2022). Bu faktorlar ölkəmizin iqtisadi və siyasi çəkisini artırmaqla bölgənin nəqliyyat-kommunikasiya infrastrukturunun inkişafında Azərbaycanın aparıcı rolunu təsdiq edir və milli maraqlarımızın müdafiə edilməsinə imkan verir. Prezident İlham Əliyevin ifadə etdiyi kimi, "Bu gün bizim iştirakımız olmadan bu regionda heç bir layihə, hətta heç bir siyasi təşəbbüs reallaşa bilməz. Azərbaycan bu gün dünya miqyasında özünü güclü dövlət kimi təsdiqləyib" (https://www.yeniazerbaycan.com/Siyaset_e36925_az.html). Bütün bunlar, Heydər Əliyevin memarı olduğu neft strategiyasının Azərbaycanın iqtisadi inkişafında və milli dövlətçilik maraqlarının qorunmasında nə qədər mühüm rol oynadığını bir daha aydın şəkildə sübut edir.

**Milli iqtisadiyyatın inkişafında neft strategiyasının rolu**

Dünya təcrübəsi onu deməyə əsas verir ki, yeni təşəkkül tapan milli iqtisadiyyatların inkişafı üçün ölkənin resurs potensialı böyük əhəmiyyətə malikdir. Azərbaycanın malik olduğu əsas təbii resurslar kimi ölkəmizin neft və qaz ehtiyatları başa düşülür. Araşdırma göstərir ki, Azərbaycanın uğurlu neft strategiyası bu resurslardan səmərəli istifadəni təmin etməklə milli iqtisadiyyatın dayanıqlı inkişafına əhə-

miyyətli təsir etmiş və milli mənafelərin qorunmasına imkan vermişdir (Humbatova və b., 2023). Heydər Əliyev tərəfindən 1999-cu ildə yaradılan Dövlət Neft Fondunun əsas məqsədi də Azərbaycanın neft və qaz satışından əldə olunan gəlirlərinin müəyyən qisminin toplanmasını və bu vəsaitlərdən hazırkı və gələcək nəsillərin rifahı naminə səmərəli istifadəni təşkil etmək olmuşdur (Dövlət Neft Fondu, 2023).

**Qrafik 1. Dövlət büdcəsində birbaşa neft gəlirlərinin payı (%)**




***Mənbə:*** *Maliyyə Nazirliyi. (2020). Büdcənin gəlir və xərc hissəsinin yerinə yetirilməsinin təhlili.*

Neft strategiyası Azərbaycan iqtisadiyyatına on milyardlarla dollar xarici investisiyaların yatırılmasına və karbohidrogen ehtiyatların dünya bazarlarına çıxarılması nəticəsində böyük həcmli maliyyə resurslarının ölkəyə axınına səbəb olmuşdur. Yatırılan investisiyaların böyük qismi neft-qaz industriyasının payına düşsə də, ümumilikdə ölkə iqtisadiyyatının dirçəldilməsinə və sosial-iqtisadi inkişafın təmin olunmasına təkan vermişdir. Ötən dövr ərzində həyata keçirilən uğurlu neft strategiyası nəticəsində əldə olunmuş bütün imkanlardan səmərəli istifadə olunaraq Azərbaycanda qeyri-neft sektorunun inkişafı istiqamətində də böyük uğurlar qazanılmışdır. Aparılan araşdırma göstərir ki, neft qiymətlərinin yüksək olması da Azərbaycanda qeyri-neft sektorunun inkişafına mühüm töhfə vermişdir və qeyri-neft sahələri üzrə real ÜDM-in artımına müsbət təsiri olmuşdur. Bunun əsas səbəblərindən biri kimi neft gəlirlərinin dövlət büdcəsinin xərclərini artırması göstərilir (Majidli, 2020). Azərbaycanın dövlət büdcəsi gəlirlərinin formalaşmasında neftdən əldə olunan gəlirlərin böyük paya sahib olması bu mülahizələrin bir daha təsdiqi kimi qiymətləndirilə bilər.

Verilmiş qrafikin təhlili göstərir ki, 2007-ci ildən 2013-cü ilə qədər dövlət büdcəsində birbaşa neft gəlirlərinin payı davamlı olaraq artmışdır və 10%-dən 58%-ə çatmışdır. 2014-cü ildən başlayaraq bu göstəricinin enmə nümayiş etdirməsini isə dünya bazarlarında neft qiymətlərinin aşağı düşməsi ilə əlaqələndirmək olar. 2014-2017-ci illərdə dövlət büdcəsində birbaşa neft gəlirlərinin payı azalma göstərərək 37%-ə düşmüş, 2018 və 2019-cu illərdə isə təxminən 49%-ə qalxmışdır (Maliyyə Nazirliyi, 2020). 2020-ci ildə isə COVİD-19 pandemiyasının qeyri-neft sektoruna sarsıdıcı təsiri dövlət büdcəsinin icrasında da özünü göstərmişdir. 2020-ci ilin dövlət büdcəsi gəlirlərində neft sektorunun payı 58%, 2021-ci ildə 51,3%, 2022-ci ildə isə 50,2% təşkil etmişdir (Maliyyə Nazirliyi, 2021; 2022). Maliyyə Nazirliyi tərəfindən açıqlanmış məlumatların təhlili neft gəlirlərinin Azərbaycan dövlət büdcəsi gəlirlərinin formalaşmasında hələ də böyük paya sahib olduğunu göstərir.

**Qeyri-neft sektorunda iqtisadi artımın əsas drayverləri**

Neft-qaz gəlirlərindən əldə olunan maliyyə resursları dövlətin qarşısında duran başlıca prioritetlərin reallaşdırılması üçün əsas mənbə rolunu oynamağa başladı. Neft gəlirləri həm regionların sosial-iqtisadi inkişafına nail olmaq, həm də qeyri-neft sahələrinin inkişafı üçün böyük imkanlar yaratdı. Bu məqsədlə ardıcıl qəbul olunan dövlət proqramları və layihələr qeyri-neft sektorunun və regionların inkişafında müsbət nəticələrin əldə olunmasına gətirib çıxardı. XX əsrin ikinci onilliyində neft qiymətlərində baş verən kəskin enmələr isə bu istiqamətdə daha səmərəli iqtisadi siyasət strategiyasının qəbul olunmasını zərurətə çevirdi. Buna görə də, Azərbaycanın iqtisadi siyasət strategiyasının yeni dövrün çağırışlarına uyğun davamlı və rəqabətcil inkişafına nail olmaq məqsədilə 2016-cı ildə Azərbaycan iqtisadiyyatını və onun əsas sektorlarını əhatə edən strateji yol xəritələri qəbul edildi. Milli iqtisadiyyatın xüsusiyyətlərini və qlobal iqtisadiyyatın inkişaf tendensiyalarını nəzərə almaqla yüksək peşəkarlıqla hazırlanmış bu inklüziv sənəd müasir mərhələdə Azərbaycanın iqtisadi inkişafının əsas katalizatoru kimi çıxış etməyə başladı (https://www.e-qanun.az/framework/34254). İqtisadiyyatın diversifikasiya baxımından əsas strateji hədəflərindən birini ölkənin əlverişli tranzit potensialından səmərəli istifadə etməklə bölgədə nəqliyyat dəhlizlərinin inkişaf etdirilməsinə nail olmaq təşkil etmişdir.

Hələ 1990-cı illərin əvvəllərində Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının Avropaya daşınması üçün inkişaf etmiş nəqliyyat infrastrukturuna zərurət yaranmışdır. Bununla əlaqədar olaraq, TRASEKA kimi qəbul olunan "Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi" layihəsi Avropa İttifaqı tərəfindən dəstəkləndi və TRASEKA adlandırılan layihənin icrasına sərmayələr yatırılmağa başlandı. Məhz bu layihə Azərbaycandan keçən tarixi İpək Yolunun yenidən qurulması kimi də diqqəti cəlb edir və Şərq-Qərb nəqliyyat dəhlizi kimi populyarlıq qazanmışdır. Vurğulamaq lazımdır ki, 2015-ci ildə Bakı Beynəlxalq Dəniz Ticarət Limanının əsaslı şəkildə yenidən inşası və 2017-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istismara verilməsi Xəzər dənizindən keçməklə Çin və Orta Asiyadan Avropaya effektiv tranzit marşrutunun fəaliyyətinə imkan verdi və Bakı-Böyük Kəsik və Yalama-Astara dəmir yollarının təmiri də Azərbaycanın beynəlxalq tranzit potensialını gücləndirdi (Mammadova, 2020).

**Şəkil 1. Yük daşınmasının nəqliyyat növləri üzrə strukturu, %**




***Mənbə:*** *İqtisadiyyat Nazirliyi (2023a). Əsas iqtisadi göstəricilər: Qeyri-neft sektorunun inkişafı (2022-ci il)*

Hazırda Zəngəzur dəhlizi Çindən Avropaya uzanan "Bir kəmər, bir yol" təşəbbüsünün vacib komponentlərindən biri və "Orta dəhliz"-in ən səmərəli marşrutu hesab olunur (Valiyev, 2023). Azərbaycanda mövcud olan hava limanları sırasına yeni inşa edilmiş Füzuli, Zəngilan və tikilməkdə olan Laçın beynəlxalq hava limanlarının əlavə edilməsi də ölkəmizin logistik imkanlarını əhəmiyyətli dərəcədə genişləndirir. Mövcud potensial və məqsədyönlü dövlət siyasəti ilə əlaqədar olaraq təkcə 2022-ci ildə 2021-ci illə müqayisədə Azərbaycanda yük daşımalarının həcmi 12,8% və sərnişin daşımalarının həcmi isə 33,5% artmış və qeyri-neft sektoru üzrə ÜDM-də payı 11,5% təşkil etmişdir. 2022-ci ilin 12 ayı ərzində müvafiq sahədə yaradılmış əlavə dəyər 2021-ci illə müqayisədə 23,2% artım nümayiş etdirmiş və 8041,9 milyon AZN təşkil etmişdir (İqtisadiyyat Nazirliyi, 2023). Müsbət tendensiya müşahidə olunmasına baxmayaraq, Azərbaycanın nəqliyyat və tranzit sahəsində daha böyük nəticələr əldə etmək potensialı vardır. Planlaşdırılan Zəngəzur dəhlizini, işğaldan azad edilmiş ərazilərin milli iqtisadiyyata reinteqrasiyası və tikilən beynəlxalq hava limanlarının perspektivlərini, eləcə də ölkəmizin Xəzər dənizi üzərindən tranzit yükgötürmə qabiliyyətini artırıldığını nəzərə alsaq əminliklə yaxın illərdə bu sektorun ölkə iqtisadiyyatına daha böyük töhfələr verəcəyini deyə bilərik. Təbii ki, nəzərdən keçirilən faktorlar Azərbaycanda bütövlükdə qeyri-neft sektorunun inkişafı üçün geniş perspektivlər açır və sürətli iqtisadi artım tempinin əldə olunacağını söyləməyə əsas verir.

**Şəkil 2. Azərbaycan Respublikasının ÜDM-i (2022)**




***Mənbə:*** *İqtisadiyyat Nazirliyi (2023b). Əsas iqtisadi göstəricilər: Makroiqtisadi inkişaf göstəriciləri (2022-ci il)*

Təqdim olunan makroiqtisadi inkişaf göstəricilərinə baxdıqda strateji idarəetmənin qeyri-neft sektorunda əhəmiyyətli irəliləyişə səbəb olduğunu görə bilərik. Ölkəmizin ÜDM-nin strukturunu təhlil etmək iqtisadi artımda qeyri-neft sektorunun payını və inkişaf istiqamətlərini müəyyənləşdirmək baxımından olduqca əhəmiyyətlidir. İlk öncə onu qeyd etmək lazımdır ki, Azərbaycanda 2022-ci ilin ÜDM istehsalı 2021-ci ilin müvafiq göstəricisi (92.9 milyard manat) ilə müqayisədə 4,6% real artım nümayiş etdirməklə 133,8 milyard manat təşkil etmişdir (AzSTAT, 2023). Şəkildən də göründüyü kimi, ÜDM-in formalaşmasında qeyri-neft sektorunun payı 52,2% olmuşdur ki, bu da həmin sektorda ÜDM istehsalının 9,1% real artımı hesabına təmin olun-

muşdur. Beləliklə, qeyri neft-qaz sektoru ÜDM-in real artım tempinə görə neft-qaz sektorunu (-2,7%) əhəmiyyətli dərəcədə üstələmiş və daha dəqiq ifadə etsək, ÜDM artımının əsas drayverinə çevrilmişdir. Bu sektor üzrə ÜDM-in 9,1%-i aqrar sahə, meşəçilik və balıqçılığın, 11,5%-i nəqliyyat və anbar təsərrüfatının, eləcə də 8,7%-i qeyri-neft industriyasının, 9,3% tikinti sahəsinin, 11,5%-i isə nəqliyyat və anbar təsərrüfatı sahəsinin, 3%-i qonaqlama industriyasının, 2,7%-i informasiya və rabitə sektorlarının və 28,1%-i başqa sektorların payına düşmüşdür. Onu da qeyd etmək lazımdır ki, qeyri-neft sektoru üzrə ÜDM-in bütün sahələrində artım müşahidə olunsa da, ən böyük artım 58,2% olmaqla turizm və ictimai iaşə sahəsində qeydə alınmışdır. Nəqliyyat və anbar təsərrüfatında bu göstərici 23,2%, informasiya və rabitə sahəsində isə 13,4% olmuşdur (İqtisadiyyat Nazirliyi, 2023b). Qeyri-neft sektorunda baş verən iqtisadi artım onun ixrac potensialını da artırmışdır. Belə ki, 2022-ci ildə 2021-ci ildəkinə nisbətən qeyri-neft ixracında 12,4% artım olmuş və onun həcmi ötən il 3,05 milyard ABŞ dollarına çatmışdır (İİTKM, 2023). Bütün bunlar Azərbaycanda qeyri-neft sektorunun inkişafında müsbət dinamikanın mövcud olduğunu göstərməklə bərabər, həm də daha böyük perspektivlərdən xəbər verir. Ən böyük artımın turizm industriyasında və nəqliyyat sektorunda baş verməsi – bu sahələrdə təbii potensial, reallaşdırılan layihələr və işğaldan azad olunmuş ərazilərin ölkə iqtisadiyyatına transformasiyası hesabına daha yüksək inkişaf göstəricilərinin əldə olunacağını söyləməyə əsas verir.

## Nəticə

Neft strategiyasının əsas elementləri olan şaxələndirilmiş ixrac boru kəmərləri və nəqliyyat marşrutları Azərbaycanı regional layihələrin əsas icraçısına və Avropanın enerji təhlükəsizliyinin təminatçılarından birinə çevirmişdir. Bu strategiyanın icrası nəticəsində milli iqtisadiyyata cəlb edilmiş investisiyalar və neftin satışından əldə olunan böyük həcmli maliyyə vəsaitləri qeyri-neft sektorunun inkişaf etdirilməsi üçün əsas mənbə rolunu oynamışdır. Beləliklə, Heydər Əliyevin memarı olduğu uğurlu neft strategiyası və ondan əldə olunan maliyyə resurslarından səmərəli istifadə milli iqtisadiyyatın dayanıqlı inkişafına mühüm töhfələr vermiş və milli mənafelərin qorunmasına şərait yaratmışdır. Məqsədyönlü dövlət siyasəti qeyri-neft sektorunun inkişafını təmin etmiş və iqtisadi artımın aparıcı qüvvəsinə çevirmişdir. 2022-ci ilin ÜDM istehsalı 2021-ci ilin müvafiq göstəricisi ilə müqayisədə 4,6% real artım nümayiş etdirməklə 133,8 milyard manat təşkil etmişdir. ÜDM-in yaradılmasında qeyri-neft sektorunun payı 52,2% olmuşdur ki, bu da həmin sektorda ÜDM-in 9,1% real artımı hesabına təmin olunmuşdur. Beləliklə, qeyri-neft sektoru ÜDM-in real artım tempinə görə neft sektorunu üstələmiş və ÜDM artımının əsas drayverinə çevrilmişdir. Bütün bunlar onu deməyə əsas verir ki, işğaldan azad olunmuş ərazilərin milli iqtisadiyyata transformasiyası ÜDM-də qeyri-neft sektorunun payını daha da artıracaqdır. Tədqiqat nəticələrinə əsasən aşağıdakı təkliflərin nəzərə alınması tövsiyə olunur:

1. İşğaldan azad edilmiş ərazilərin milli iqtisadiyyata inteqrasiyasının qeyri-neft ÜDM-nə təsirinin araşdırılması;

2. İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərəcək sahibkarlar üçün güzəştli kredit və ixraca dəstək mexanizmlərini nəzərdə tutan xüsusi proqramın hazırlanması.

## ƏDƏBİYYAT SİYAHISI


*1. AzSTAT. (2023). ASİS. Ümumi Daxili Məhsulun istifadəsi (cari qiymətlərlə, mln. manat).*

*2. Dövlət Neft Fondu. (2023). Missiya və məqsəd. https://oilfund.az/fund/about/mission*

*3. Energetika Nazirliyi. (2019). Neftin nəqli. https://minenergy.gov.az/az/neft/baki-novorossiysk-neft-kemeri.*

*4. European Commission. (2022). REPowerEU Plan. https://eur-lex.europa.eu/legal-content/EN/TXT/?uri=COM:2022:230:FIN*

*5. https://www.yeniazerbaycan.com/Siyaset_e36925_az.html*

*6. https://www.yeniazerbaycan.com/Siyaset_e36925_az.html*

*7. Humbatova, S. I., Tanriverdiev, S. M., Mammadov, I. N., & Hajiyev, N. G. O. (2020). Impact of investment on GDP and non-oil GDP in Azerbaijan. Entrep. Sustain, (2020), 7.*

*8. Humbatova, S., Panahova, G. M., Mahmudova, I. M., Gadim, N., & Hajiyev, O. (2023). The Impact of Azerbaijan's Oil Strategy on Economic Growth: Analysis and Diagnosis. International Journal of Energy Economics and Policy, 13(2), 181.*

*9. İİTKM. (2023). İxrac icmalı. Qeyri-neft sektoru üzrə ixraca dair məlumat.*

*10. İqtisadiyyat Nazirliyi (2023b). Əsas iqtisadi göstəricilər: Makroiqtisadi inkişaf göstəriciləri*

*11. İqtisadiyyat Nazirliyi. (2023a). Əsas iqtisadi göstəricilər: Qeyri-neft sektorunun inkişafı.*

*12. Ismailzade, F., & Babayev, B. (2020). Strategic advantages of transport network in the Caspian sea region. Розвиток методів управління та господарювання на транспорті, 4(73), 79-91.*

*13. Khrushcheva, Olga. 2011. The Creation of an Energy Security Society as a Way to Decrease Securitization Levels between the European Union and Russia in Energy Trade, Journal of Contemporary European Research 7, no.2: 216-230.*

*14. Majidli, F. (2020). How oil price and exchange rate affect non-oil GDP of the oil-rich country: Azerbaijan?. International Journal of Energy Economics and Policy.*

*15. Maliyyə Nazirliyi. (2020). Büdcənin gəlir və xərc hissəsinin yerinə yetirilməsinin təhlili.*

*16. Maliyyə Nazirliyi. (2021). Büdcənin gəlir və xərc hissəsinin yerinə yetirilməsinin təhlili.*

*17. Maliyyə Nazirliyi. (2022). Büdcənin gəlir və xərc hissəsinin yerinə yetirilməsinin təhlili*

*18. Mammadova, A. (2020). Respublikamızın tranzit potensialının genişləndirilməsinin prioritet məsələləri. https://papers.ssrn.com/sol3/papers.cfm?abstract_id=3853210*

*19. Suleymanov, E., & Aliyev, K. (2015). Macroeconomic analysis and graphical interpretation of Azerbaijan economy in 1991-2012. Expert Journal of Economics, 3(1).*

*20. Valiyev, J. (2023). The Role of the Existing Middle Corridor and the Planned Zangezur Corridor in the Economy of Azerbaijan. Scientific Collection «InterConf», (144), 34-42.*

## XÜLASƏ

Əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan Azərbaycanın uğurlu neft strategiyası ölkə iqtisadiyyatına böyük həcmdə investisiyaların cəlb edilməsini təmin etməklə iqtisadi artımın, sosial tərəqqinin və ümumilikdə iqtisadi inkişafın hərəkətverici qüvvəsi kimi çıxış etmişdir. Bu strategiya çərçivəsində ixrac boru kəmərlərinin və nəqliyyat marşrutlarının şaxələndirilməsi Azərbaycanı həm də regionun əsas tranzit ölkəsinə çevirmişdir. Təbii sərvətlərin dünya bazarlarına çıxarılmasından əldə olunan maliyyə resursları dövlət gəlirlərini artırmaqla digər qeyri-neft sahələrinin inkişafına da təkan vermişdir. Ölkəmizin Avropanın enerji təhlükəsizliyində rolunun artması isə Azərbaycana həm də siyasi dividendlər gətirməklə beynəlxalq müstəvidə milli maraqlarının müdafiəsi işinə böyük töhfələr vermişdir.

Məqalədə Azərbaycanın neft strategiyasının iqtisadiyyatın digər sahələrinin inkişafında rolu tədqiq olunmuş və qeyri-neft sektorunda iqtisadi artımın əsas drayverləri müəyyənləşdirilmişdir. Qarşıya qoyulan məqsədlərə nail olmaq üçün sistemli ədəbiyyat icmalı həyata keçirilmiş, rəsmi dövlət orqanlarının və beynəlxalq təşkilatların məlumatlarına istinad edilməklə məzmun təhlili, müqayisə və ümumiləşdirmə metodlarından istifadə olunmuşdur. Araşdırma göstərir ki, neft gəlirləri davamlı iqtisadi inkişafın təmin olunmasında əsas maliyyə mənbəyi kimi çıxış etməklə, qeyri-neft sektorunun inkişafında mühüm rol oynamışdır.

**Açar sözlər:** *Neft strategiyası, nəqliyyat, investisiya, qeyri-neft sektoru, iqtisadi artım.*

**B. Nurane**

**From the successful oil strategy of Heydar Aliyev to the development of the non-oil sector: economic growth and its basis**

## ABSTRACT

The successful oil strategy of Azerbaijan, which was founded by the national leader Heydar Aliyev, acted as a driving force of economic growth, social progress and economic development in general by ensuring the attraction of large-scale investments in the country's economy. Diversification of export pipelines and transport routes within this strategy has also made Azerbaijan the main transit country of the region. The financial resources obtained from the export of natural resources to the world markets have boosted the development of other non-oil sectors by increasing state revenues. The increase in the role of our country in Europe's energy security has also brought political dividends to Azerbaijan and made great contributions to the defense of its national interests at the international level. In the article, the role of Azerbaijan's oil strategy in the development of other areas of the economy is studied and the main drivers of economic growth in the non-oil sector are identified. In order to achieve the set goals, a systematic literature review was carried out, content analysis, comparison and generalization methods

were used with reference to the information of official state bodies and international organizations. The research shows that oil revenues have played an important role in the development of the non-oil sector by acting as the main financial source for ensuring sustainable economic development.

**Key words:** *Oil strategy, transport, investment, non-oil sector, economic growth.*

**Б. Нурана**

**От успешной нефтяной стратегии Гейдара Алиева к развитию ненефтяного сектора: экономический рост и его основа**

**РЕЗЮМЕ**

Успешная нефтяная стратегия Азербайджана, заложенная общенациональным лидером Гейдаром Алиевым, выступила движущей силой экономического роста, социального прогресса и экономического развития в целом, обеспечив привлечение масштабных инвестиций в экономику страны. Диверсификация экспортных трубопроводов и транспортных маршрутов в рамках этой стратегии также сделала Азербайджан главной транзитной страной региона. Финансовые ресурсы, полученные от экспорта природных ресурсов на мировые рынки, стимулировали развитие других ненефтяных секторов за счет увеличения государственных доходов. Повышение роли нашей страны в энергетической безопасности Европы также принесло Азербайджану политические дивиденды и внесло большой вклад в защиту его национальных интересов на международном уровне. В статье изучается роль нефтяной стратегии Азербайджана в развитии других сфер экономики и определяются основные драйверы экономического роста в ненефтяном секторе. Для достижения поставленных целей был проведен систематический обзор литературы, использованы методы контент-анализа, сравнения и обобщения со ссылкой на информацию официальных государственных органов и международных организаций. Исследование показывает, что доходы от нефти сыграли важную роль в развитии ненефтяного сектора, выступив в качестве основного финансового источника для обеспечения устойчивого экономического развития.

**Ключевые слова:** *Нефтяная стратегия, транспорт, инвестиции, ненефтяной сектор, экономический рост.*